**UOT 76**

**Ülya Abdullayeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı**
**E-mail: ulya.abdullayeva@yahoo.com**

# CƏLAL QARYAĞDI YARADICILIĞINDA JANR MÜXTƏLİFLİYİ

**Xülasə:** Məqalədə Azərbaycan heykəltəraşlığının görkəmli nümayəndələrindən olan Xalq rəssamı Cəlal Qaryağdının yaradıcılığı tədqiq edilir. XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf istiqamətlərini müəyyənləşdirən heykəltəraşlar arasında Cəlal Qaryağdının özünəməxsus yeri vardır. Onun janr müxtəlifliyi ilə seçilən çoxşaxəli yaradıcılığı gənc nəsil Azərbaycan heykəltəraşlarının formalaşmasında böyük əhəmiyyət kəsb edir. Dəzgah, monumental və memorial heykəltəraşlıq sahəsində yaratdığı əsərlər bu gün də ölkəmizin şəhər, küçə və meydanlarını bəzəməkdədir. M.Ə.Sabir (Bakı), N.Nərimanov (Bakı), C.Cabbarlı (Xızı), H.Aslanov (Lənkəran) və b. həsr olunmuş abidələr bu qəbildəndir.

**Açar sözlər**: heykəltəraş, Cəlal Qaryağdı, Azərbaycan, dəzgah, monumental, memorial.

XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf istiqamətlərini müəyyənləşdirən heykəltəraşlardan biri də Xalq rəssamı Cəlal Qaryağdıdır. O, ixtisas təsilini əvvəlcə Azərbaycan Rəssamlıq Texnikumunda (1929-1932), daha sonra Tiflis Rəssamlıq Akademiyasında (1934-1937) almışdı. Cəlal Qaryağdı həmişə zamanın fövqündə dayanan, daim axtarışda olan, yeniliyə can atan, yaratmaq eşqi bitib - tükənməyən sənət fədailərindəndir. Belə ki, o, yalnız yaradıcılıqla kifayətlənməyib, uzun müddət ixtisasına müvafiq pedaqoji fəaliyyətlə də məşğul olmuş və gənc nəsil Azərbaycan heykəltəraşlarının formalaşmasında böyük xidmətlər nümayiş etdirmişdir. Odur ki, təsviri sənət sahəsində göstərdiyi xidmətlərə görə Cəlal Qaryağdı 1954-cü ildə Əməkdar incəsənət xadimi, 1960-cı ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdü. Heykəltəraş, eyni zamanda Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdi.

Geniş yaradıcılıq diapazonuna malik olan Cəlal Qaryağdı, dəzgah, monumental, portret, büst, barelyef və qorelyef kimi heykəltəraşlığın müxtəlif növlərində özünü sınamış, möhtəşəm sənət əsərləri yaratmağa nail olmuşdur. Onun əsərləri ümumilikdə monumentallığı, janr müxtəlifliyi, kompozisiya bütövlüyü, plastik vasitələrlə obrazın daxili aləminin aşkara çıxarılması, mahiranə plastik həlli ilə seçilir.

Qədim tariximizə, bədii ənənələrimizə, ədəbiyyatımıza dərindən bələd olan sənətkarın yaradıcılığının mayasında milli kolorit dayanır. Süjetli kompozi-

siyaların hər bir heykəltəraşın yaradıcılığında onun gerçəkliyə və mövcud sənət prinsip və metodlarına münasibətini əks etdirdiyini nəzərə alsaq, Cəlal Qaryağdının emalatxanasında da belə əsərlərin yer alması təbiidir. Digər heykəltəraşlar kimi Cəlal Qaryağdının da dəzgah plastikasında bədii estetik və ifadə prinsiplərinə müvafiq kompozisiyalar yaratmasının başlıca səbəbi monumental heykəllərdə gerçəkləşdirə bilmədiyi incə duyğu və hissləri dəzgah heykəltəraşlığında ifadə etmək imkanına malik olmasıdır. Həm də bu sahədə janr əlvanlığının zənginliyi də əsas rol oynayır.

Cəlal Qaryağdının ilk bədii yaradıcılıq işi böyük rus şairi A.S.Puşkinin barelyefidir (1937). "Təhsilinin sonunda, yəni 1937-ci ildə böyük rus şairi A.S. Puşkinin yubiley tədbirləri çərçivəsində keçirilən sərgidə Cəlal Qaryağdı özünün ilk yaradıcılıq əsərini – A.S.Puşkinin barelyefini nümayiş etdirir. Şairin həmdövr portretlərinə əsasən yaradılmış barelyefdə lirik əhval-ruhiyyə və incə plastik keçidlər gənc heykəltəraşın formalaşmaqda olan yaradıcılıq dəst-xəttini açıq-aşkar nümayiş etdirirdi" (2, 10).

Yaradıcılığının erkən mərhələsində Cəlal Qaryağdı heykəltəraşlığın digər növlərində də öz gücünü sınamağa başlayır. Belə növlərdən biri relyef heykəltəraşlığı idi. 1939-cu ildə Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin Azərbaycan pavilyonunda sərgilənən "Bağçılar" və "Heyvandarlar" barelyeflərini heykəltəraşın yaradıcılığında yeni mərhələ adlandırmaq olar. Verilən mövzunun kompozisiya və rəsm baxımından düzgün həll edilməsi o zaman üçün gənc heykəltəraşın yüksək ustalığının göstəricisi idi. Barelyeflər divarın üzərində, pavilyonun memarlıq həllinə münasib tərzdə işlənmişdir. Ümumiyyətlə, pavilyonun tərtibatı və Cəlal Qaryağdının fəal iştirakı sərgi komitəsi tərəfindən xüsusilə vurğulanmış, bədii tərtibata görə heykəltəraş mükafatlandırılmışdır.

Qeyd edək ki, "heykəltəraşın yaratdığı ilk monumental heykəl də məhz 1940-cı ildə Samur-Dəvəçi kanalının memarlıq tərtibatının əsas abidəsi olan "Kəndli" monumenti olmuşdur. Dörd metr hündürlüyündə olan fiqur Azərbaycan kəndlisinin ictimai maraqlarla yaşayan, fəal vətəndaş mövqeyi olan yeni obrazını özündə əks etdirirdi". [2, 15].

Cəlal Qaryağdının Nizami muzeyinin vestibülünü bəzəyən, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının motivləri əsasında hazırladığı "Fərhad Bisütun dağını yararkən" (1945) qorelyefi Azərbaycanın dəzgah heykəltəraşlığının ən gözəl nümunələrindəndir. Burada ön planda xalqın böyük qüvvəsini tərənnüm edən Fərhadın öz bəxtinə yol açması üçün Bisütun dağını yarması təsvir olunur. Qorelyefdə tişə ustası hərəkətdə kəskinliyi, kompozisiyada dinamikliyi peşəkarcasına verə bilmişdir. Sözügedən əsər haqqında Cəlal Qaryağdı müsahibələrinin birində olduqca maraqlı bir məqama toxunmuşdur: "Doğrusu, uşaqlıqda heykəltəraşlıq barədə çox az təsəvvürüm vardı. O vaxtlar heç bir heykəltəraş tanımırdım. Mənim üçün ən böyük heykəltəraş Nizami Gəncəvinin "Xosrov və

Şirin" əsərindəki Fərhad idi. Heykəltəraş olmaq heç ağlıma da gəlmirdi. Çünki boyca balaca, bədəncə arıq idim. Mənə belə gəlirdi ki, heykəltəraş Fərhad kimi nəhəng və qüvvətli olmalıdır" [3, 32].

Cəlal Qaryağdı yaradıcılığının zirvəsi və sənətinin məhsuldar dövrü XX əsrin 40-cı illərinə təsadüf edir. Yaradıcılığının əsas hissəsi kommunist ideologiyasının hakim olduğu dövrlə üst-üstə düşsə də onun yaratdığı heykəllərdə siyasi mövqelərə az rast gəlinir. O, daim yeniliyə can atan, yaradıcılıq axtarışları aparan, obrazın daxili dünyasının açıqlanması üçün müxtəlif formalar düşünən sənətkar idi. Həmçinin stabil, özünəməxsus yonulma manerasına, forma, biçim və mütənasiblik meyarlarına sadiqlik, təxəyyülün, düşüncələrin aydınlığı onun əsərlərində öz əksini tapmışdır.

Cəlal Qaryağdı yaradıcılığı üçün eyni bir şəxsin obrazına müraciət etmək də səciyyəvi haldır. O, hər dəfə həmin obrazın bədii həllində yeni cəhətləri aşkarlamağa səy göstərir. Heykəltəraş üçün belə sevimli obraz iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank diviziyasının general - mayoru Həzi Aslanovdur. O, igid Vətən oğlunun obrazına 1944, 1948 (iki dəfə), 1955, 1961 və 1976-cı illərdə müraciət etmiş, qəhrəmanın portretlərini hazırlamış, gələcək monumental abidə üçün özül yaratmışdır. Başqa sözlə desək, 1944-cü ildə kağız və karandaşla başlanan yaradıcılıq axtarışları 1948-ci ildə gips, 1948 və 1976-cı illərdə tunc, 1955-ci ildə mərmər portretlərlə davam etmişdir.

Qeyd edək ki, qəhrəmanlıq mövzusu Cəlal Qaryağdı yaradıcılığında ana xətt kimi həmişə öndə olmuşdur. Ümumiyyətlə, müharibə qəhrəmanlarının portretlərini yaratmaq tişə ustasının sevimli işi olmuşdur. O, qəhrəmanların iradə və əyilməzliyini qabardır, insan xarakterinin müsbət cizgilərini tərənnüm edirdi. Bu mənada Adil Quliyev, İsrafil Məmmədov, Ziba Qəniyeva, Züleyxa Seyidməmmədova kimi Vətən müharibəsinin qəhrəmanlarının silsilə obrazlarını qeyd etmək olar. Onun "Şəfqət bacısı" adlı portret kompozisiyasındakı tibb bacısı isə müharibənin arxa cəbhəsinin qəhrəmanıdır.

Sovet İttifaqı Qəhrəmanı Adil Quliyevin portretini (1945) Cəlal Qaryağdı müəyyən fasilələrlə yaratsa da, öz dinamikliyi ilə diqqəti cəlb edir. Adil Quliyevin portreti Azərbaycan plastika sənətinin uğurlu nümunəsidir. Hər şeydən əvvəl portret sənətkarlıq meyarlarına - bədii obrazın inandırıcı həllinə görə mükəmməldir. Heykəltəraş cəsarətli təyyarəçini sadə, gülərüz və çılğın insan kimi təsvir etmişdir. Heykəldə qəhrəmanın çiyinlərə nisbətən başının sərt dönüşü və sərrast baxışı onun çılğın xasiyyətindən xəbər verir. "Büst formasında işlənmiş heykəltəraşlıq portretində "yumşaq" və sərt yapma texnikasının vəhdətindən yaranmış incə plastik səthlərin və dinamik formaların vahid obrazda birləşməsinin şahidi oluruq" [2, 27].

Böyük Vətən müharibəsindən sonra fəaliyyətini daha da gücləndirən heykəltəraşın yaradıcılıq axtarışları yaddaqalan obrazların yaradılmasına yönəldil-

mişdir. O, öz yaradıcılıq axtarışlarında tarixi mövzulara, Azərbaycanın görkəmli xadimlərinin obrazlarını yaratmaq işinə daha çox yer vermişdir. Bu mənada Cəlal Qaryağdının portret xarakterli əsərlərlə düşündürücü məna və məzmuna malik sənət nümunələri yaratması xüsusi qeyd olunmalıdır. Bu, birinci növbədə heykəltəraşın sahib olduğu sənətin sirlərinə və incəliklərinə dərindən bələd olmasının nəticəsidir.

"Müharibədən sonrakı dövrdə dəzgah heykəltəraşlığı sahəsində, xüsusilə, portret janrında neçə-neçə uğurlu əsərlər yaradılmışdır. Bu mənada Cəlal Qaryağdının təyyarəçi Adil Quliyevə (1948), snayper Ziba Qəniyevaya (1948), müğənni Rəşid Behbudova (1949) və Bülbülə (1953), şairə Natəvana (1949) və general Həzi Aslanova (1954) həsr etdiyi portretlərini, o cümlədən, ağacdan hazırladığı "Güləyən qız" (1957) kompozisiyasını uğurlu nümunə kimi qeyd etmək olar. Cəlal Qaryağdının müəllifi olduğu və Azərbaycanın müstəqilliyinə kimi Hökumət evinin qarşısındakı meydanı bəzəyən V.İ.Leninin heykəli (1954) ideoloji uyğunsuzluğa görə məhv edilsə də, etiraf etmək lazımdır ki, abidə bu mövzuda keçmiş SSRİ məkanında yaradılmış ən uğurlu əsərlərdən biri idi". (1, 32)

Cəlal Qaryağdı 1949-cu ildə Azərbaycanda inqilabi satiranın banisi Mirzə Ələkbər Sabirin eskiz - layihəsini, 1956-cı ildə isə abidə - layihəsini dəzgah heykəltəraşlığı nümunəsi kimi işləyərək gələcəkdə dahi şairin monumental abidəsinin yaranmasının təməlini qoymuşdur.

1950-1960-cı illər heykəltəraşın yaradıcılığının ən məhsuldar dövrüdür. V.İ.Leninin, M.Ə.Sabirin monumental heykəlləri, S.Vurğunun qəbirüstü abidəsi, məşhur musiqiçilərin portretləri məhz bu dövrün uğurlu işləridir.

Qeyd edək ki, M.Ə.Sabir obrazına Cəlal Qaryağdı 1958-ci ildə yaratdığı monumental abidədən sonra yenidən qayıtmış, dahi satirikin portretini (1962) yaratmışdır. Heykəltəraş bu dəfə onu ədəbi yaradıcılıqla məşğul olarkən təsvir edir. Öz daxili aləminə qapılan, ilham anını yaşayan şair Cəlal Qaryağdı təxəyyülü və tişəsi ilə realist sənətkar obrazı kimi yadda qalır. 1962-ci ildə şairin anadan olmasının 100 illiyi münasibəti ilə Şamaxı şəhərində Sabirin ev muzeyi yaradılmışdır. Şairin Bakı şəhərində qoyulan abidəsinin gips materialından hazırlanan kiçik ölçülü maketi (eskizi) 1962-ci ildə həmin muzeyə hədiyyə edilmişdir.

Azərbaycanda monumental heykəltəraşlıq nümunələri XX əsrin əvvəllərindən təşəkkül tapsa da, memorial-xatirə heykəltəraşlığı Böyük Vətən müharibəsindən sonra geniş vüsət almışdır. Hər bir heykəltəraşın yaradıcılığında memorial-xatirə abidələri zamanın müxtəlif çağlarında olmuşdur. Böyük Vətən müharibəsindəki qələbənin ildönümlərində Azərbaycanın bütün rayon və şəhərlərində ayrı-ayrı konkret qəhrəmanların, həmçinin həlak olmuş həmyerlilərimizin xatirəsini əbədiləşdirmək üçün xatirə memarlıq abidələri ucaltmaq ənənəyə çevrilmişdi.

Belə memorial heykəltəraşlıq əsərlərdən birini 1979-cu ildə Cəlal Qaryağ-

dı ərsəyə gətirmişdir. Bu, Bərdə şəhərində ucaldılan Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə həsr edilmiş memorial memarlıq ansamblının əsas hissəsi- "Ana" heykəlidir. Belə memorial xatirə komplekslərində ümumiləşdirilmiş bədii obrazı yaradılan Azərbaycan qadını hörüklərinin birini ağ, o birini qara hörərək gözlərini yollara dikib qəhrəman oğulları gözləyir.

Cəlal Qaryağdı bir çox məşhur heykəltəraşlar kimi birinci və ikinci Fəxri Xiyabandakı bəzi qəbirüstü abidələrin də müəllifidir. Xalq şairi Səməd Vurğunun (1957), bəstəkarlar Zülfüqar Hacıbəyovun (1962), Soltan Hacıbəyovun (1965), akademik Yusif Məmmədəliyevin (1963), 1945-1946-cı illərdə Cənubi Azərbaycanda qurulan Azərbaycan Milli Hökumətinin sədri Seyid Cəfər Pişəvərinin (birinci Fəxri Xiyaban), eləcə də tarzən Hacı Məmmədov, güləşçi İbrahim Paşa Dadaşov, mühəndis Qalib İsgəndərov, dirijor Çingiz Hacıbəyov, Sona xanım Cabbarlı (ikinci Fəxri Xiyaban) kimi şəxsiyyətlərin xatirəsinə ucaldılmış qəbirüstü abidələr bu qəbildəndir.

Nəticə etibarilə qeyd edək ki, bir çox tişə ustalarının tarixi və qəhrəmanlıq mövzularında yaradılan və əbədiləşən heykəlləri ilə yanaşı bu gün emalatxanalarda qalan, yaxud muzey ekspozisiyalarında nümayiş olunan əsərləri də vardır. Bu əsərlərin "bəxt"i ona görə gətirməyib ki, müəllifə ömür vəfa etmədiyindən əsərini tamamlaya bilməyib, yaxud zəif sənətkarlığı buna imkan verməyib. Ancaq Cəlal Qaryağdı bəlkə də ən bəxtəvər sənətkarlardandır ki, onun yarımçıq qalan əsəri yoxdur. Daha dəqiq desək, heykəltəraşın oğlu, Rəssamlar İttifaqının üzvü, tərtibatçı - dizayner Cəlil Qaryağdının sözlərinə görə, atasının yarımçıq qalan, sona çatdırmağa imkan tapmadığı işləri olmayıb. O, bütün işlərini sona çatdırmağa tələsərdi, sürətlə və cəld işləyərdi, başladığı işi yarımçıq qoymağı xoşlamazdı. Hər hansı bir tapşırığı bacardıqca tez yerinə yetirərdi, hətta ahıl çağlarında belə gənclik enerjisi ilə işləyərdi...

## Ədəbiyyat siyahısı

1 Əliyev Z. XX əsr Azərbaycan heykəltəraşlığının inkişaf mərhələləri (1920-1991). Bakı: Elm və təhsil, 2016. 200 s.

2 İbrahimov T. Cəlal Qaryağdı. "Sərvət". Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2013, 104 s.

3 Möhbəddin Səməd. "Ötən günlər bir də geri qayıtmır", "Qobustan" incəsənət toplusu, 1971, № 4, səh 31.

4 Tərlanov M. Cəlal Qaryağdı. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1958. 80 s.

5 Габибов Н., Наджафов М. "Искусство Советского Азербайджана". Живопись, скульптура, графика, Москва, 1960.

6 Некролог. Джалал Магеррам оглу Гарягды. Газета "Бакинский рабочий" от 3 января 2001. № 1. Ст.3.

7 Новрузова Дж. "Джалал Карягды", буклет. М.: "Советский художник". 1965 г.

**Улья Абдуллаева**

## Жанровое разнообразие в творчестве Джалала Гарягды

**Резюме:** В статье исследуется творчество народного художника Джалала Гарягды, одного из ярких представителей азербайджанской скульптуры. Джалал Гарягды занимает особое место среди скульпторов, определивших направления развития азербайджанской скульптуры XX века. Его многогранная работа, отличающаяся жанровым разнообразием, имеет большое значение в формировании молодого поколения азербайджанских скульпторов. Его работы в области скамейки, монументальной и мемориальной скульптуры до сих пор украшают города, улицы и площади нашей страны. М.А.Сабир (Баку), Н.Нариманов (Баку), Дж. Джаббарлы (Хызы), Х.Асланов (Ленкорань) и другие памятники такого рода.

**Ключевые слова:** скульптор, Джалал Гарягды, Азербайджан, скамейка, монументальный, мемориал.

**Ulya Abdullayeva**

## Genre diversity in the creativity of Jalal Qaryagdi

**Summary:** The article examines the work of People's Artist Jalal Qaryagdi, one of the prominent representatives of Azerbaijani sculpture. Jalal Qaryagdi has a special place among the sculptors who defined the development directions of XX century Azerbaijani sculpture. His multifaceted work, distinguished by its genre diversity, is of great importance in the formation of the young generation of Azerbaijani sculptors. His works in the field of bench, monumental and memorial sculpture still adorn the cities, streets and squares of our country. M.A. Sabir (Baku), N.Narimanov (Baku), J.Jabbarli (Khizi), H.Aslanov (Lankaran) and others. Dedicated monuments are of this kind too.

**Key words**: sculptor, Jalal Qaryagdi, Azerbaijan, bench, monumental, memorial.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 08. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**